# RƏŞAD CƏNNƏTDƏN GƏLİB MƏNƏ CƏNNƏTİ YAŞADIB CƏNNƏTƏ GETDİ...

## Şəhid-gizir Rəşad Ağabəy oğlu Babayevin həyat yoldaşı Nigar Babayeva ilə müsahibə



*Vətən müharibəsi başlamazdan qabaq, hər il, hər ay,hər gün, hər saat, hər dəqiqə, hətta hər an bu vətən torpağında yaşadığımız, onun bizə ərməğan etdiyi ana südü kimi təmiz, saf havasını hər dəfə udduğumuzdaanlayırdıq ki, bu vətən torpağı altında neçə-neçə igidlər, qəhrəmanlar yatıb ki, biz torpağın üstündə rahat gəzə bilək. Biz hər zaman bu igidlərin qəhrəmanlıq salnamələri, dastanları, səhifələri ilə tanış olurduq, qədəm-qədəm onları daha yaxından tanıyırdıq. Bununla belə Vətən müharibəsi bizə daha çox şeyi öyrətdi. 30 il ərzində səbirlə, təmkinlə, dözümlə, böyük inamla qisas gününü gözləyən vətən fədailərinin şəhadət şərbətini necə içdiyini və bu dünyada qalan əzizləri ilə birlikdə olmağı ağıllarına belə gətirmədən vətən uğrunda necə şücaətlə, əzmlə, qürurla "təki vətən sağ olsun " deyib sevinə-sevinə vətənə qurban getdiyini öyrəndik.*

*2908 Şəhid, 2908 Vətən təşnəsi, 2908 Vətən fədaisi... 2908 fərqli tale, fərqli həyat, fərqli yerlərdə yaşanan ömür və bir olan amal yeri, şəhadət yeri, şəhadət şərbəti və ucaldıqları şəhadət zirvəsi, nəhayət azad etdikləri və bu gün köksündə rahat uyuduqları vətən torpağı. Bu 2908 əməlisaleh fədainin yaşadığı həyat, keçdiyi qısa, lakinolduqca mənalı, şərəfli, şərafətli, tariximiz boyu yaşayacaq ömür və döyüş yolu onlardan bizə qalan saysız-hesabsız əmanətlərdən biridir. Dəfələrlə demişəm və həmişə də deyəcəyəm ki, bizim onlaraödəyə bilməyəcəyimiz qədərborcumuz var.Biz ancaq bu borcu tam dərk etdikdən sonra Şəhidlərimizin qurban getdiyi vətən torpaqlarında rahat gəzə bilərik. Onda Şəhidlər öz qanlarını, haqlarını bu torpaq üzərində sakit, təhlükəsiz, hər hansı qorxu, təlaş keçirmədən gəzənlərə, səyahət edən vətən övladlarına halal edərlər. Mən də bir vətən övladı kimi bu müqəddəs borcuöz üzərimdə hiss etdiyimdən hər gün yeni bir qəhrəmanımızı tanımaq və xalqımıza tanıtmağın qüruru içindəyəm. Hər dəfə o qəhrəmanlarımızın adını qürurla çəkəndə köksüm qabarır, onları daha çox tanıdıqca bir o qədər də qürurlanıram ki, nə yaxşı ki bu qəhrəmanların doğulub böyüdüyü bir torpaqda ayaq açıb yeriyirəm. Hər gün ayaq açıb yeridiyimiz, havasını udduğumuz, "bizimdir" dediyimiz bu torpaqları Uca Allahımızdan sonra bizə bəxşedən də Şəhidlərimizdir. Onlardan biri də yaşadığımız bu dünyaya gəldiyi andan Cənnəti və onu sevən qəlbləri fəth edən, əsl müsəlman, türk, əsl insan qeyrətli, mərd, igid, elə doğulandan qəhrəman olanXTQ giziri, Vətən müharibəsi Şəhidi Rəşad Ağabəy oğlu Babayevdir.*

*Rəşad Babayev 1992-ci il iyunun 4-də Bakı şəhərində anadan olmuşdur.1998-2006-cı illərdə Bakı şəhəri, Nizami rayonu Rəhilə Orucova adına 109 saylıməktəbdə, 2006-2009-cu illərdə 277 saylı idman təmayüllü məktəbdə orta, 2009-2013-cü illərdə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almışdır. O, 8 yaşından cüdoçu olaraq idman sahəsində öz bacarığını göstərmiş, 20-dən çox qızıl, gümüş və bürünc medallara layiq görülmüşdür. 2014-cü ildən XTQ-nin "N" saylı hərbi hissəsində hərbi xidmətə başlamış, elə həmin ilin 25 iyul tarixində "kiçik gizir" xüsusi hərbi rütbəsi almış, 24 noyabr 2017-ci ildə "gizir" hərbi rütbəsinə yüksəlmiş, xüsusi təyinatlı snayper, manqa komandiri və xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifələrində xidmət etmişdir. Hərbi xidmət müddətində dəhəm cüdo və güləş yarışlarında, həm də hərbi xidmətində nailiyyətlərinə görə dəfələrlə fəxri fərmanlarla və diplomlarla, eyni zamanda hərbi xidmət müddətində "Qüsursuz xidmətə görə" III dərəcəli medalı və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalılə təltif edilmişdir. O, çoxsaylı hərbi təlimlərdə iştirak edərək yüksək göstəricilərinə görə fərqlənmişdir.*



*Rəşad Babayev Vətən müharibəsi zamanı Murovdağın, Suqovuşanın, Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdəmənfur düşmənə qarşı mərdlik və qəhrəmanlıqla mübarizə aparmış, əzmlə döyüşmüş, 10 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsinin azad edilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhadətindən sonra Ali Baş Komandanın müvafiq sərəncamlarına əsasən 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə, "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.*

*Gəlin Şəhid Rəşad Babayevin şərəfli ömür yolu barədə bu dünyada öz həyatını onun qısa və mənalı həyatı ilə birləşdirmiş, ömür-gününəyoldaş olmuş həyat yoldaşı Nigar Babayevanın dilindən eşidək. Görək Şəhidimizin ömür-gün yoldaşı, yadigarı bizlərə onun haqqında bilmədiyimiz nələri agah edəcək.*

**- Salam. Xahiş edirəm, əvvəlcə özünüzü təqdim edəsiniz.**

Mən, Babayeva Nigar Əjdər qızı - qəhrəmanlığı ilə unudulmaz tarix yazan Vətən Qəhrəmanı, Xüsusi Təyinatlı Qüvvələrin giziri Şəhid Rəşad Babayevin xanımıyam.

**- Şəhidimiz Rəşad Babayev ilə ilk tanışlığınız və ailə həyatı qurmaq qərarına gəlməyiniz barədə nə deyə bilərsiniz?**

- Rəşad ilə 2014-cü ilin avqust ayının 22-də tanış olmuşuq. Həmin ildə mən inşaat-tikinti şirkətində memardizayner kimi çalışırdım.Rəşadla tanışlığımızdan elə bir ay öncədəno, artıq Xüsusi Təyinatlı Qüvvələrdə "kiçik gizir" rütbəsində xidmətə başlamışdı. Bir ay sonra isə şərəfli vəzifəsi olan hərbiçi kimi qismətim oldu. Mən uşaqlıqdan bəri əsgər formasını sevirdim, onların vəzifəsinin necə qürurverici və şərəfli olduğunu anlayırdım. Allah elə sevib arzu etdiyim kimi mənəRəşadı qismət etdi. Biz bir-birimizi ilk tanıyandan bəri ikimizə də sanki bir-birimizi illərdir tanıyırmış kimi, doğma kimi gəlirdik. Ona görə də bizim birlikdə elə ilk arzularımız gözəl, böyük ailə olub, birlikdə yaşlanmaq olmuşdu. Rəşad, həqiqətən, həm zahirən, həm də daxilən qüsursuz bir insan idi. Heç bir pis vərdişi, mənfi xüsusiyyəti yox idi. Onun kimi gözəl, imanlı, saf qəlbli və vətənə xidmət edən bir insanın ilk və tək sevgisi olmaq, onun qəlbini qazanmaq mənim üçün Allahdan ən böyük mükafatdır.-Hər kəsə ondan böyük fəxrlə bəhs edirdim. Çünki hər kəsə nəsib olmur vətənə xidmət edən bir qəhrəmanın sevdiyi xanım olmaq. Allah bu dünyada ikən mənə Cənnəti nəsib edib.Sanki Allah onu tanıyandan mənə hiss etdirmişdi ki, o, Şəhiddir, həyatıma, mənə əbədi yar olmağa gəlib. Çünki mən onu tanıyandan bəri "Sən mənim Cənnətimsən, inşəAllah" deyirdim. Həqiqətən, Rəşad Cənnətdən gəlib mənə Cənnəti yaşadıb Cənnətə getdi. Mən onun adını hər çəkəndə Cənnət gəlir ağlıma. 2017-ci ilavqustun 6-da nikahımız, 2019-cu ilaprelin 20-də isə toyumuz olub.Bizim qurduğumuz ailə daim hər kəsə öz sədaqəti ilə, əsl ailə müqəddəsliyi ilə nümunə olub və olacaqdır.

**- Şəhidimizin ailədə, tanışları və dostları arasında xarakteri, xasiyyəti barəsində nə deyə bilərsiniz?**

- Rəşad uşaqlıqdan bəri həm ailədə, həm də dostları, yaxınları arasında daim sevilən və seçilən biri olub. Kiçik yaşlarında da Rəşadın vətənpərvər və mühafizəkar bir xarakteri var idi. Çox mərd, cəsur biri idi. Uşaq ikən dostlarını kim incitsə, xətrinə dəysə, Rəşad öz yaşına uyğun gücü ilə dostlarını qoruyardı. Rəşad ətrafının, dostlarının qəhrəmanı idi. Rəşad ailədə, yaxınları, dostları arasında hər kəsin üzünü güldürən, zarafatcıl idi. Çox mülayim, mərhəmətli, saf ürəyi var idi. Mehribanlığı, gülən nur üzü ilə hər kəsin qəlbini qazanmağı bacarırdı. Uşaqlıq dostları, iş yoldaşları -hamı Rəşaddan danışanda onun hərkəsdən fərqli olduğunu deyirlər. Rəşad onu görən, tanıyan hamının üzündə sevinc yaradırdı. Heç bir kəslə arasında inciklik saxlamırdı. Hər kəs onu gülən, mehriban siması ilə, böyüklərə hörməti, uşaqlara isə sevgisi ilə xatırlayır. Həqiqətən, hər kəsdən seçilirdi, lakin heç kim anlamırdı ki, o, Şəhiddir.Bu dünyada heç bir mənfi xüsusiyyəti olmadan yaxşı insan olmaq hərkəsə nəsib olmur. Amma Rəşad elə insan idi. O, həqiqətən, mükəmməl insan idi.

Rəşad vətəninə xidmətini, öz şərəfli vəzifəsini layiqincə yerinə yetirirdi.O, həyatını yalnız vətəninə xidmətə həsr etmişdi. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək nə qədər çətin və ağır olsa da, bir o qədər də şərəfli, məsuliyyətli vəzifədir. Bu vəzifəyə sahib olmaq günlərlə, həftələrlə ailəsini görmədən, yuxu bilmədən, böyük sevgi ilə, hər insanın tab gətirə bilməyəcəyi bir əziyyətə, çətinliyə qatlanaraq vətəninə təmənnasız xidmət etmək deməkdir. Rəşad bu şərəfli vəzifəsinin öhdəsindən layiqincə gəlirdi, hər bir əziyyətini sevə-sevə çəkirdi. Xidmət etdiyi hərbi hissədə iş yoldaşları arasında da böyük hörmət qazanmışdı. Döyüş yoldaşları daim Rəşadın həm işdə, həm də döyüşdə daim necə mərd, cəld olduğundan və canavar kimi döyüşdüyündən danışır. Rəşad həm də çox yardımsevər və mərhəmətli idi. O, həm ailəsinə, həm də ehtiyacı olan ailələrə yardım etməyi sevərdi. Təlimlərə hər yola düşdüyündə özü ilə az geyilmiş və ya geyilməyən geyimlər, əşyalar aparıb getdiyi yerlərdə ehtiyacı olan ailələrə, uşaqlara verərdi. Hər il Qurban bayramında öz qazancı ilə qurban kəsib kasıb ailələrə paylayardı. Allah sanki onu yalnız insanlara yaxşılıq və vətənə xidmət üçün göndərmişdi. Rəşad həm saf qəlbi, insanlığı, həm də qəhrəmanlığı ilə bütün bəşəriyyətə nümunə idi. O, Allaha, haqqa və vətəninə sadiq bir insan idi. Buna görə də Allah onu bu dünyadan ən şərəfli ölüm ilə ayırdı, hər kəsə nəsib olmayan Şəhidlik zirvəsinə ucaltdı. O, indi bütün Azərbaycanın əbədi yaşayan qəhrəmanı və fəxridir. Onun kimi şərəfli, vətəninə, Haqqa, sevgisinə, ailəsinə sadiq bir insanın, qəhrəman bir hərbiçinin həyat yoldaşı olduğum üçün böyük fəxr və şərəf duyuram.

**- O, hərbi təlimlərdə tez-tez olurdumu? Keçdiyi hərbi təlimlər barədə sizə nə isə məlumat verirdimi?**

- Rəşad xüsusi təyinatlı hərbiçi olduğundan onlar tez-tez təlimlərə gedirdilər və təlimləri çox çətin və ağır olurdu. 2016-cı ildə EFES Türkiyə təlimlərinə qatılmışdı, orada da xüsusi peşəkarlığı və şücaəti ilə birincilik sertifikatına layiq görülmüşdü. Rəşad üçün çətinlik, yorğunluq deyə bir şey yox idi. O, hərbi xidmətdə də şücaəti və cəldliyi ilə seçilirdi.Rütbəsi gizir olan Rəşad kəskin nişançı snayper və kəşfiyyatçı idi. O, xüsusi təyinatlı manqa komandiri idi. Rəşad öz şərəfli vəzifəsinin məxfiliyinə sadiq idi və heçvaxt işdə nələr etdiyini, təlimlərdə nələrdən keçdiyini dəqiqliyi ilə evdə danışmazdı.O, yalnız hərbi xidmətdə qazandığı uğurları, birincilikləri fəxrlə danışardı. Onun hərbi xidmətdə bir çox uğurları, fəxri fərmanları, sertifikatları var. Rəşad öz vəzifəsi ilə qürur və fəxr duyurdu. Onun üçün vətən ilə ailə bir idi, ayırmazdı. Müharibənin olduğu 2020-ci ildədaha tez-tez və uzunmüddətli təlimlərə gedirdilər. Mən isə müharibə olacağını ağlıma belə gətirə bilmirdim. Çünki Rəşad heç vaxt vəzifəsinin sirrini verməzdi və həmişə deyərdi ki, narahat olma, müharibə olmayacaq.

*(Davamı var)*

**Sevindik NƏSİBOĞLU,**
***8-ci sinif şagirdi, şair-publisist,***
***AJB-nin üzvü***